# Türkiyəli müğənnidən Azərbaycan xanımlarına 8 Mart hədiyyəsi

## Oya Ergünün Rəşid Behbudovun 100 illik yubileyi ərəfəsinə düşən konserti anşlaqla keçdi



*"Ayrılıq, ayrılıq, aman ayrılıq*
*Hər bir dərddən olar yaman ayrılıq"...*

Dillər əzbərinə çevrilən "Ayrılıq" Azərbaycanın gözəl xalq mahnısı olmaqla bərabər, qardaş Türkiyədə də sevilərək dinlənilir. Dünən Azərbaycan xanımları üçün pulsuz konsert verən Türkiyə opera ifaçısı Oya Ergünün tədbiri həm də xalqımızın sevimli ifaçılarından olan Rəşid Behbudovun 100 illik yubileyi ərəfəsinə salması heç də təsadüfi deyildi. 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə konsert proqramı ilə çıxış edən Oya Ergün R.Behbudovun repertuarına müraciət edərək Mahnı Teatrında tamaşaçılara maraqlı anlar yaşatdı.

Səhnəyə təşrif buyuran ifaçı ilk olaraq səsini dinləməyə gələn tamaşaçıları salamladı, xanım iştirakçıların bayramını təbrik etdi. Onlara ən ümdə istək olan qadın xoşbəxtliyi arzuladı. Adətən opera və klassik tipli konsertlərdə





zal dolmasa da, Oya xanımın konsertində lojalarda belə boş yer qalmamışdı. Oya Ergün konsertdə dahi sənətkar Rəşid Behbudovun bir-birindən maraqlı mahnılarına müraciət etdi, tamaşaçıların zövqünü oxşadı. Belə ki, opera ifaçısı öz repertuarına daxil olan mahnılarla yanaşı, "Gecələr", "Ayrılıq", "Nazəndə sevgilim", "Reyhan", "Lalələr" və Azərbaycanın digər xalq mahnılarını da ifa etdi. Bundan əlavə, Oya xanım slayd şəkildə R.Behbduovun lent yazısında səsləndirdiyi "Sənə də qalmaz" mahnısını duet kimi ifa etdi. Duetdən sonra isə O.Ergünün R.Behbudovun sevimli mahnılarından olan "Sevgilim" mahnısına çəkdirdiyi klip nümayiş olundu.

Oya Ergünü səhnədə tək qoymayan Azərbaycanın gənc opera ifaçısı Ülvi Qılınc isə zalda əyləşən tanınmış şairə, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyevaya sürpriz olaraq, sözləri ona, musiqisi Arif Səlimova məxsus olan "Yollar" mahnısını ifa etdi. Ü.Qılınc daha sonra "Evləri var xana-xana" mahnısı ilə ifasına davam etdi.

Gənc opera ifaçısının bu çıxışından sonra kulisə keçib ondan konsert haqqında təəssüratlarını xəbər aldıq: "Öyrəşmişik ki, klassik konsertlərdə az tamaşaçı gəlir. Ancaq Oya xanımın bu konserti ilə zal demək olar ki, dolubdaşır. Bu da o deməkdir ki, onun kifayət qədər tamaşaçısı var. Oya xanım maraqlı və incə zövqlü xanımdır. O ki qaldı Sona xanımın şeirinə bəstələnən mahnını ifa etməyimə, mən hər zaman sürpriz etməyi sevmişəm. Sona xanım bu ifa ilə məni səhnədə görəndə, təəccübləndi. Onun "Yollar" şeirini ilk dəfə oxuyanda çox bəyəndim. Oradakı sözlər məni o qədər valeh etdi ki, bunu oxumağı özümə borc bildim. Mahnını bir il bundan qabaq oxusam da, indi təqdim etdim. Mən bu şeirə görə Sona xanıma çox təşəkkürümü bildirirəm. O, mənim ifamı alqışla qarşıladı. Onun qəlbi gözəl olmasaydı, belə gözəl misralar yaza bilməzdi. Bu tərif deyil, həqiqətdir"

Azərbaycan xanımları üçün nəzərdə tutulmuş sözügedən konsertdə Oya Ergünü yeddi nəfərlik azərbaycanlı orkestr müşayiət edirdi. Bu konsertdə daha çox Azərbaycan musiqiləri ifa etməyi düşünən O.Ergün bir neçə xarici mahnılara da müraciət etdi. Xanım ifaçı tamaşaçılara R.Behbudovun 100 illik yubileyi ilə bağlı bu il Avropada və Türkiyədə konsert proqramları təşkil edəcəyini söylədi. O, Rəşid Behbudovun vurğunu və pərəstişkarı olduğunu bildirməyi də unutmadı.

Opera ifaçısını səhnədə tək qoymayan sevilən müğənni Rəşad İlyasov da Özdəmir Ərdoğanın "Mənə əllərini ver" mahnısını ifa etdi. İfasından sonra R.İlyasov Oya Ergünə sürprizi olduğunu bildirdi. Belə ki, telekanalların birində R.Behbudovun çəkildiyi filmin 60 illiyi ilə əlaqədar hazırlanan proqramda Oya xanım Rəşid Behbudovun filmdə ifa etdiyi mahnıları səsləndirəcək. Oya Ergün R.İlyasovun bu xəbərini eşitdikdə çox sevindi və R.İlyasovun istəyi ilə növbəti musiqi nömrəsini onunla bərabər oxudu. Bu ifa da auditoriya tərəfindən alqışlarla qarşılandı.

İfasından sonra "Kaspi" qəzetinə açıqlama verən R.İlyasov Oya Ergünün bu təşəbbüsünü alqışladığını və ona daha böyük uğurlar arzuladığını qeyd etdi: "Oya xanımın repertuar seçimini çox bəyəndim. İnşallah, onun növbəti konsertləri bundan da gözəl olar. Onun Rəşid Behbudov pərəstişkarı olması bizi çox sevindirir. Mən də öz adımdan Oya Ergünə bundan sonrakı yaradıcılığında bol-bol uğurlar arzulayıram".

Konsertin sonunda Oye Ergün Ülvi Qılıncla birgə "Bakı" mahnısını duet şəklində ifa etdi. Sonuncu ifa da tamaşaçıların sürəkli alqışlarına səbəb oldu. Onlar çoxsaylı gül dəstələri ilə Oya xanımı uğurlu konsertinə və gözəl səsinə görə təbrik etdilər. Tamaşaçılar salonu tərk edərkən çox məmnun görünürdülər.

Fürsətdən istifadə edib konsertdə iştirak edən istedadlı sənət adamları ilə yanaşı, həm Oya xanımın, həm də onun həyat yoldaşının təəssüratlarını öyrənməyə çalşdıq. Tanınmış muğam ifaçısı Bəyimxanım Vəliyeva konsertdən zövq aldığını və maraqlı konsert proqramının keçdiyini bildirdi: "Sevindirici haldır ki, qardaş ölkənin, türk xalqının ifaçısı bizim mahnılarımıza müraciət edir. Mən də Oya xanımı təbrik edirəm. Oya xanım çox tanınmış sənətçilərdəndir. O, Azərbaycanda 3 il yaşamasına baxmayaraq, Rəşid Behbudovun mahnılarından ibarət disk hazırlayıb, Avropada Azərbaycanı təmsil etməklə yanaşı, həm də musiqilərimizi tanıtmaqla məşğuldur. O, dünyanın müxtəlif ölkələrində böyük konsert salonlarında Rəşid Behbudovun bir-birindən maraqlı mahnıları ilə çıxışlar edib. Hazırda da Azərbaycanın dahi sənətkarının yaradıcılığına müraciət edir, onun repertuarından mahnılar səsləndirir və bununla da kifayətlənməyib kliplər çəkdirir. Bütün bu işlərlə Oya xanım Azərbaycan musiqisini bir növ təmsil etmiş olur. Mən Oya xanıma bol-bol uğurlar və gözəl mahnılar arzulayıram. Onun bu addımını dəstəkləyirəm".

Oya Ergünün həyat yoldaşı, tanınmış həkim, professor Hakan Tanrıverdi də bizimlə təəssüratlarını bölüşdü: "Oya xanım mənim sənətinə heyran olduğum bir sənətçidir. O, ifa etdiyi mahnıların sanki daxili aləminə vararaq yaşayır. Mən onun ifa etdiyi mahnılara heç qarışmıram. O, işini bilən xanımdır. Sənət elə bir şeydir ki, insan onun vasitəsilə pis qüvvələrdən uzaqlaşır. Mən ixtisasca həkiməm. Hesab edirəm ki, həkimin etdiyi daha önəmli olan şey ruh təmizliyidir. O, səhnədə olduğu kimi, evdə də zərifdir. Bütün insanlara qarşı eyni münasibət bəsləyir. Səhnədə necə bir Oya görürsünüzsə, evdə də elə bir Oya olur".

Kulisə keçdikdə, əllərində çiçək dəstələri ilə səbəbkarı təbrik etmək üçün toplaşan xeyli tamaşaçı gördük. Oya Ergün onlara minnətdarlığını bildirərərk xatirə şəkli çəkdirirdi. Sevdiklərini ətrafında görüb sevinc hissləri keçirən Oya Ergün "Kaspi" qəzetinə öz minnətdarlığını bildirdi və konsert sonrası ilk təəssüratlarını bizimlə paylaşdı: "Konsert bitdikdən sonra sənətçilər onun necə keçdiyini deməyə çətinlik çəkirlər. Konsertin gedişatı barədə tamaşaçılar daha yaxşı münasibət bildirirlər. Yəqin ki, bir neçə günə tamaşaçıların fikirləri gəlib mənə çatar. Konsertdə çox dəyərli insanlar gördüm və xoşbəxt oldum. Hər kəsə ayrı-ayrılıqda minnətdarlığımı bildirirəm. Çox həyəcanlıyam".

**Xəyalə Rəis**